


# 18-Cİ MADDƏ ÜZRƏ MƏHKƏMƏ İŞLƏRİNİN APARILMASI

**Midlseks Universitetində fəaliyyət göstərən Avropa İnsan Hüquqlarını Müdafiə Mərkəzi (EHRAC) tərəfindən 2021-ci ilin aprel ayında London şəhərində hazırlanmışdır.**

EHRAC

Middlesex University London

# Mündəricat

Giriş 3

18-ci maddə  nəyi əhatə edir? 3

18-ci maddə üzrə şikayəti nə zaman verməlisiniz? 4

18-ci maddə hansı növ işlərdə tətbiq olunub? 4

Hakimiyyət orqanlarının "gizli məqsəd" güddüyünü necə sübut edə bilərsiniz? 4

18-ci maddənin pozuntusunun tanınması nəyi dəyişir? 6

Digər faydalı resurslar 8

## Giriş

Avropa İnsan Hüquqları Konvensiyasının on illərlə diqqət çəkməyən, lakin son dövrlərdə hüquqi praktikada çiçəklənməkdə olan maddələrindən biri 18-ci maddədir. Bu maddə, mahiyyət etibarilə, dövlət orqanlarının Konvensiyada nəzərdə tutulan hüquqları gizli məqsədlərlə məhdudlaşdırmasının qarşısını alır və xüsusilə siyasi təqiblə bağlı işlərdə - başqa sözlə, dövlət orqanlarının fərdləri qərəzli niyyətlə hədəfə aldığı hallarda tətbiq olunub. 18-ci maddənin məqsəd və hədəfi səlahiyyətdən sui-istifadəni qadağan etməkdir.

Biz EHRAC olaraq, Azərbaycandakı hüquq müdafiəçiləri (Rəsul Cəfərov Azərbaycana qarşı, Əliyev Azərbaycana qarşı və Leyla Yunusova və Arif Yunusov Azərbaycan qarşı) və Gürcüstanın keçmiş baş naziri (Merabişvili Gürcüstana qarşı) adından qaldırılan işlərdə və həmçinin digər hallarda 18-ci maddəni uğurla tətbiq etmişik.

Bəs 18-ci maddə nəyi əhatə edir, nə zaman və necə tətbiq edilməlidir, uğurlu nəticəni necə əldə etmək olar və onun təsiri nədən ibarətdir? EHRAC-ın direktoru Filip Liç tərəfindən yazılmış bu vəsait bu suallara müəyyən cavabların təmin edilməsinə yönəlir. Bu vəsait president hüququnun hərtərəfli təhlilini aparmağa səy göstərmir (bunun üçün başqa resurslar mövcuddur - aşağıdakı "Faydalı resurslar"a baxa bilərsiniz), lakin əvəzində Avropa İnsan Hüquqları Məhkəməsində (və ya daxili məhkəmələrdə) qarşısında hüququqi işləri aparan vəkillərə və QHT-lərə bu maddəni daha yaxşı başa düşməkdə və bu maddə üzrə şikayət verərkən məqsədəuyğun strategiyalar qəbul etməkdə köməklik göstərmək məqsədi daşıyır.

## 18-ci maddə nəyi əhatə edir?

18-ci maddənin mətnində deyilir:

> Qeyd olunan hüquq və azadlıqlarla bağlı bu Konvensiyada yol verilən məhdudiyyətlər, nəzərdə tutulduğundan başqa, hər hansı digər məqsəd üçün tətbiq olunmamalıdır.

Bu, Məhkəməyə, tətbiq olunan hər hansı məhdudiyyət tədbiri üçün göstərilən əsasları araşdırmaq imkanı verir. Əgər barəsində şikayət verilən tədbir faktiki olaraq Konvensiyada nəzərdə tutulduğu səbəblərdən fərqli olaraq başqa əsaslarla tətbiq olunubsa, burada Konvensiyanın pozuntusu baş vermiş ola bilər. Bu səbəbdən, bu maddə, Konvensiyanın təməlində duran qanunauyğunluq meyarı və spesifik olaraq özbaşına tədbirlərin qarşısının alınması ilə əlaqəlidir.

Bəs bu, hansı "məhdudiyyətlər"i əhatə edir? Maddənin mətnində deyildiyi kimi, bu, Konvensiyanın icazə verdiyi istənilən məhdudiyyətlərə şamil olunur. Bu günə qədərki əksər işlərdə bu maddə, azadlıqlarının məhdutlaşdırılmasından şikayət edən ərizəçilər tərəfindən, yəni, 5-ci maddə (şəxsin azadlıq və toxunulmazlıq hüququ) ilə birgə götürülməklə qaldırılmışdır. Lakin 18-ci maddə, həm də vəkilin evində və ofisində axtarış və müsadirənin aparılması (8-ci maddəyə əsasən – şəxsi həyatına, evinə hörmət hüququ) və siyasətçinin kütləvi nümayişlərdə dəfələrlə tutulması (11-ci maddəyə əsasən - toplaşmaq azadlığı hüququ) ilə bağlı tətbiq edilib.

18-ci maddə hələ ki 6-cı maddə (ədalətli məhkəmə araşdırması hüququ) ilə birgə tətbiq olunmayıb, çünki 6-cı maddə 18-ci maddənin şamil oluna biləcəyi hər hansı məhdudiyyəti əhatə etmir (baxmayaraq ki, bu mövqe artıq sual altına alınıb və hazırda mübahisələndirilir).

İstənilən halda, bu müddəanın haradan qaynaqlandığını yaddan saxlamaq vacibdir. Belə ki, Konvensiyanın hazırlıq materiallarının təsdiq etdiyi kimi, bu müddəa despotizmlə mübarizə aparmaq üçün təqdim edilmişdir.

> "bu gün qorxmalı olduğumuz şey totalitarizm tərəfindən zorakılıq vasitəsilə hakimiyyətin qəsb olunması deyil, totalitarizmin özünü psevdo-legitim vasitələrlə hakimiyyətdə saxlamağa cəhd etməsidir. Təcrübə göstərir ki, icraedici hakimiyyətin totalitar rejim yaradan bütün aktlarının zahirən qanunilik xarakteri qazanması üçün hər hansı ölkənin təkcə bir seçki kampaniyasında qorxu və terror mühiti yaratmaq kifayətdir."

## 18-ci maddə üzrə şikayəti nə zaman verməlisiniz?

Tətbiq olunan bəzi rəsmi qaydalar vardır. 18-ci maddə tək irəli sürülə bilməz - o, Konvensiyada nəzərdə tutulan başqa bir hüquqla birgə qaldırılmalıdır (14-cü maddədə olduğu kimi). Məsələn, qərəzli niyyətlə məsuliyyətə cəlb olunduğunu və həbs edildiyini iddia edən ərizəçilər 18-ci maddənin 5-ci maddə ilə birgə götürülməklə pozulduğunu iddia edir.

Bununla belə, Konvensiyada nəzərdə tutulan digər maddə təklikdə pozulmuş olmasa belə, 18-ci maddənin pozuntusu (həmin digər maddə ilə birgə götürüldükdə) baş vermiş ola bilər.

Məhkəmə 18-ci maddə üzrə şikayətlərin qiymətləndirilməsində adi sübut standartını tətbiq edir (bu gün ilk başlardakı hüquqi praktikada təklif edildiyi kimi daha ciddi standart tələb olunmur).

Bu rəsmi qaydalardan başqa, 18-ci maddə üzrə şikayətin qaldırıb-qaldırılmamasını və bunun necə edilməli olduğunu nəzərdən keçirərkən, qiymətləndirilməli olan daha geniş strateji məsələlər vardır. 18-ci maddə üzrə pozuntu faktının (səlahiyyətli şəxslərin qərəzli niyyətlə hərəkət etməsi) tanınmasının əhəmiyyətini nəzərə alaraq, Məhkəmə bu cür nəticələrə gəlmək baxımından ehtiyatlı olmağa meyl edir. Bu məsələlərdən sonrakı bölmələrdə daha ətraflı bəhs edilir.

## 18-ci maddə hansı növ işlərdə tətbiq olunub?

Ukrayna, Azərbaycan, Gürcüstan, Türkiyə və Rusiyadakı müxalif siyasətçilər, o cümlədən də Ukraynanın keçmiş baş naziri Yuliya Timoşenko və keçmiş daxili işlər naziri Yuriy Lutsenko 18-ci maddəni uğurla qaldırmışlar. Bu, həmçinin Azərbaycanlı müxalif siyasətçi İlqar Məmmədov və Gürcüstanın keçmiş baş naziri İvan Merabişvili, eyni zamanda Türkiyəli siyasətçi Selahattin Demirtaş və rusiyalı siyasi fəal Aleksey Navalnıya da aiddir (bax burada).

Daha bir qrup iş Rəsul Cəfərov, İntiqam Əliyev, Anar Məmmədli, Xədicə İsmayılova, Leyla Yunusova və Arif Yunusov və NİDA vətəndaş hərəkatının idarə heyəti üzvləri də daxil olmaqla, Azərbaycanda cinayət təqibinə məruz qalan hüquq müdafiəçiləri, jurnalistlər və vəkillərlə bağlıdır. Türkiyəli hüquq müdafiəçisi Osman Kavala da 18-ci maddəyə uğurla istinad etmişdir.

## Hakimiyyət orqanlarının "gizli məqsəd" güddüyünü necə sübut edə bilərsiniz?

Ən çətin məsələlərdən biri hakimiyyətin qərəzli niyyətlə hərəkət etdiyini sübut etməkdir - hansı növ sübutlar lazımdır? Bu suala cavab vermək asan olmasa da, 18-ci maddənin həm uğurla, həm də əbəs yerə istifadə edildiyi işləri oxuduqda bəzi məqamlar aydın olur. İlk növbədə, konkret bir ərizəçi ilə bağlı olan və hakimiyyətin ona qarşı gizli məqsədlə addımlar atdığını göstərən spesifik sübutun olub-olmadığını nəzərdən keçirməlisiniz. Bir fərdə münasibətdə qərəzli niyyəti göstərən qəti sübut əldə etmək çətin ola bilər, lakin bu halda, dövlət orqanları tərəfindən verilmiş müvafiq açıqlamaları, habelə onların əvvəlki davranışlarını və daha geniş konteksti nəzərdən keçirməli olacaqsınız. Məsələn, Azərbaycanlı hüquq müdafiəçiləri tərəfindən qaldırılan işlərdə (aşağıda bəhs olunur) Məhkəmə insan hüquqları fəallarına qarşı repressiyanın geniş yayılmış daxili kontekstini diqqətlə araşdırmışdır.

Qərəzli niyyətlə bağlı iddiaların uğurlu olacağı gözlənilən bəzi yüksək səviyyəli işlərdə 18-ci maddəyə istinad edilsə də, uğurlu olmadı. Məsələn, Rusiyadakı "Yukos" neft şirkətinin keçmiş İdarə Heyətinin üzvü və  əsas səhmdarı Mixail Xodorkovskinin tutulması, həbsi və cinayət məsuliyyətinə cəlb edilməsinin siyasi sifarişli olması ilə bağlı şikayətləri Məhkəmə tərəfindən rədd edildi. Məhkəmə, onun işində 'müəyyən şübhələrin' yarandığını qəbul etdi, lakin cənab Xodorkovskinin iddia etdiyi kimi, onun işində bütün qanuni mexanizmlərin başlanğıcdan etibarən sui-istifadə edildiyini təsbit etmək üçün kifayət qədər sübut yox idi. 18-ci maddə, həmçinin, "Yukos Neft Şirkəti ASC Rusiyaya qarşı" işində uğursuz şəkildə tətbiq edilmişdir. Belə ki, həmin iş şirkətə qarşı cinayət təqibi və vergi icraatının həyata keçirilməsi və nəticədə böyük məbləğdə cərimələrin tətbiq edilməsi, şirkətin müflisliyinə və ləvğinə səbəb olması ilə bağlı idi.

Məhkəmə, icraatın arxasında hər hansı siyasi motivin olduğuna dair bir sübut tapmadı. Gürcüstanın Mülki Aviasiya Agentliyinin sədri kimi öz vəzifəsini sui-istifadə etdiyinə görə cinayət məsuliyyətinə cəlb edilmiş Zurab Çankotadzenin də 18-ci maddə üzrə şikayəti uğursuz oldu. O, məhkəmə araşdırmasının ədalətsiz olduğunu və 6-cı maddənin pozuntusunu göstərə bilmişdi. Lakin, Məhkəmə sual altında olan hərəkətlərin (mülki aviasiya şirkətləri ilə imzalanmış müqavilələrlə bağlı) ümumilikdə hansı səbəbdən cinayət xarakterli hesab edildiyini başa düşə bilməmişdi. Cənab Çankotadze 18-ci maddə üzrə şikayətini (5-ci maddə ilə birgə götürülməklə) əsaslandırmaq üçün, Mixail Saakaşvilinin prezidentlik kampaniyası zamanı cənab Çankotadzeni həbsə atdırmaqla hədələdiyini ehtiva edən çıxışlarına istinad etdi. Lakin bu, hakimiyyətin onu tutmaq və cinayət məsuliyyətinə cəlb etməklə bağlı gizli məqsədlər güddüyünü sübut etmək üçün yetərli hesab edilmədi.

Ərizəçilər gizli məqsədə dəlalət edən sübutedici sənədi çox nadir hallarda təqdim edə bilirlər. Lakin biznes moğulu Vladimir Qusinski buna nail olmuşdu. O iddia edirdi ki, hakimiyyət onu həbs etməklə, onu əslində öz media biznesini əlverişsiz şərtlərlə "Qazprom"a satmağa məcbur etmək məqsədini güdürdü. Məhkəmə aşağıdakı əsaslarla qərəzli niyyətin mövcudluğunu aşkar etdi: o həbsdə olarkən, "Qazprom" ondan bir razılaşma imzalamağı xahiş etdi; nazirlərdən biri bu razılaşmanı öz imzası ilə təsdiq etdi; və sonradan istintaqı aparan məmur razılaşmanı icra edərək cinayət prosesinə xitam verdi. Məhkəmə belə nəticəyə gəldi ki, "cinayət icraatı və həbs kimi publik hüquq məsələlərinin məqsədi kommersiya xarakterli sövdələşmə strategiyalarının tərkib hissəsi kimi istifadə olunmaq deyildir".

18-ci maddənin uğurla tətbiq edildiyi işlərin əksəriyyətində Məhkəmə cinayət işlərinin açıldığı daha geniş kontekst, o cümlədən cinayət təqibi orqanlarının verdiyi əsaslandırma əsasında qərəzli niyyətlə bağlı nəticələrə gəlir. Yuriy Lutsenkonun işində Məhkəmə qeyd etdi ki, cinayət təqibi orqanları ərizəçinin media ilə kommunikasiyasının onun həbsinin əsaslarından biri olduğunu bəyan etmiş və ərizəçini törətdiyi cinayətlər barədə ictimai rəyi təhrif etməkdə, cinayət təqibi orqanlarını nüfuzdan salmaqda və qarşıdakı məhkəməsinin nəticəsinə təsir etməyə çalışmaqda ittiham etmişdi. Məhkəmə üçün bu hal, cinayət təqibi orqanlarının cənab Lutsenkonu ona qarşı qaldırılan ittihamlarla razılaşmadığını ictimai şəkildə bildirdiyi və günahsız olduğunu iddia etdiyi üçün cəzalandırmaq istəyini açıq-aşkar nümayiş etdirirdi. Bu səbəbdən, onun azadlığının məhdudlaşdırılması onu sadəcə cinayət törətməsi ilə bağlı ağlabatan şübhə əsasında səlahiyyətli hüquqi orqan qarşısına çıxarmaq məqsədilə deyil, həm də digər səbəblərdən tətbiq olunmuşdu ki, bu da 5-ci maddə ilə birgə götürülməklə, 18-ci maddəni pozmuşdur. Eynilə, Məhkəmə müəyyən etdi ki, Yuliya Timoşenkonun həbsinin faktiki məqsədi ona qarşı başladılan icraata mane olduğuna və məhkəməyə qarşı həqarətli davranışına görə onu cəzalandırmaq olmuşdur. Türkiyəli hüquq müdafiəçisi Osman Kavalanın işində Məhkəmə müəyyən etdi ki, onun cinayət təqibi və həbsi ağlabatan dərəcədə, milli qanunvericiliyə əsasən cinayət xarakterli davranış hesab ediləcək faktlara əsaslanmayıb. Sual altında olan hadisələrlə cənab Kavalanın həbsi arasındakı uzun və açıqlanmayan vaxt aralığını (bir neçə il) və ona qarşı ittihamın Türkiyə Prezidentinin cənab Kavalanı şəxsən tənqid etdiyi iki çıxışından qısa müddət sonra irəli sürüldüyünü xüsusilə qeyd edərək, Məhkəmə belə nəticəyə gəldi ki, ona qarşı görülmüş tədbirlər onun hüquq müdafiəçisi kimi fəaliyyətini dayandırmaq gizli məqsədi daşımışdır.

Digər işlərdə isə mövqe daha da qətiləşir. İlqar Məmmədovun işi iğtişaşa təhrik etməkdə ittiham olunan bir siyasətçi və bloqqerin saxlanması və cinayət məsuliyyətinə cəlb olunması ilə bağlı idi. Məhkəmə müəyyən etdi ki, onun həbsini əsaslandırmaq üçün ağlabatan şübhə olmamışdır və buna görə də hakimiyyət orqanları xoş niyyətlə hərəkət etdiklərini nümayiş etdirə bilməmişdir. Həqiqətən də, Məhkəmə onun həbsinin iğtişaşların səbəbləri barədə dərc etdiyi bir neçə bloq yazısı ilə əlaqəli olduğunu qeyd etdi.

## Məqsədlərin çoxluğu

Qiymətləndirilməsi daha çətin olan işlər o işlərdir ki, Məhkəmə şəxsin Konvensiyada nəzərdə tutulan hüquqlarına tətbiq olunan məhdudiyyətləin birləşməsini həm düzgün, həm də qeyri-düzgün olduğunu ("məqsədlərin çoxluğu") müəyyən edir. Bu cür vəziyyətlərdə Məhkəmə əsas üstünlük təşkil edən məqsədin nə olduğunu qiymətləndirir. Bunu etmək üçün, o, iddia olunan gizli məqsədin xarakterini və nə dərəcədə qərəzli niyyət daşıdığını nəzərdən keçirir.

Bu, Merabişvilinin işində, Gürcüstanda aparıcı müxalif siyasətçinin səlahiyyətdən sui-istifadəyə

(və digər cinayətlərə) görə cinayət təqibi və məhkəməyədək həbsinə dair mövqe olmuşdur. Məhkəmə müəyyən etdi ki, ilkin olaraq, o, ittiham olunduğu cinayət əməllərinə görə ağlabatan şübhə əsasında səlahiyyətli hüquqi orqan qarşısına çıxarılmaq kimi düzgün məqsədlə həbs edilmişdi. Lakin Məhkəmə onu da müəyyən etdi ki, ərizəçinin aşağıdakı ifadəsi də eyni dərəcədə etibarlı və inandırıcı idi: o, bir gecə öz kamerasından çıxarılaraq Baş Prokuror və cəzaçəkmə müəssisəsinin rəhbəri ilə görüşə aparıldı. Onlar onu keçmişi baş nazirin ölümünün istintaqı və keçmiş prezidentlə bağlı iş barədə ifadə verməyə inandırmağa çalışdılar. Nəticədə, Məhkəmə belə qənaətə gəldi ki, ərizəçinin azadlığının məhdudlaşdırılmasının əsas məqsədi dəyişmişdir (digər işlər barədə məlumat əldə etmək). Bu səbəbdən, 5-ci maddə ilə birgə götürülməklə 18-ci maddənin pozuntusu olmuşdur. Selahattin Demirtaş işində də oxşar nəticəyə gəlindi. Həmin işdə Məhkəmə qeyd etdi ki, ərizəçi-şikayətçi həm cinayət törətməsi ilə bağlı ağlabatan şübhə olduğundan (Maddə 5(1)(c)), lakin həm də siyasi səbəblərdən həbs edilmişdir. Bununla belə, Məhkəmə müəyyən etdi ki, əsas gizli məqsəd plüralizmi boğmaq və siyasi müzakirə azadlığını məhdudlaşdırmaq olub.

Bu işlər göstərir ki, bəzi vəziyyətlərdə 18-ci maddə üzrə iddia qaldırmaq vacib və faydalı olsa da, digər hallarda bunu etməmək daha yaxşı ola bilər, çünki bu "xal itkisi" riski yaradır. 18-ci maddə üzrə şikayətin uğur perspektivinin təhlükəli olduğu görünürsə, sizin strategiyanız dövlət orqanlarının qərəzli niyyətlə hərəkət etdiyini sübut olunmasının əhəmiyyətindən, yaxud əksinə burada "xal itirməməyin" əhəmiyyətindən asılı ola bilər. Presedint hüququ məsələsi kimi, Məhkəmə Merabişvili işində qeyd etmişdir ki, o, 18-ci maddəni yalnız o halda nəzərdən keçirir ki, bu, işin "fundamental bir aspekti"ni təşkil etsin.

Məsələn, hüquq müdafiəçisinin ofisində polis tərəfindən aparılan sərt və əsassız axtarış və müsadirə əməliyyatını düşünün. Bu halda siz bu cür bir tədbirin 8-ci maddənin (şəxsi və ailə həyatına, evinə və yazışma sirrinə hörmət) qeyri-proporsional pozuntusu olduğunu iddia etmək istəyəcəksiniz. Bununla bağlı 18-ci maddə üzrə verəcəyiniz şikayətin uğurlu olub-olmaması isə hakimiyyətin qərəzli niyyətlə hərəkət etdiyini və bunun həmin işin fundamental bir aspekti olduğunu sübut etməyinizdən asılı olacaq.

Aleksey Navalni, kütləvi nümayişlərdə yeddi dəfə tutulmasından və siyasi fəallığı səbəbindən hədəf alındığı üçün 18-ci maddənin pozuntusundan (həmin hallardan ikisi ilə əlaqədar) şikayət verdi. Məhkəmənin Böyük Palatası müəyyən etdi ki, onun 18-ci maddə üzrə şikayəti həqiqətən də işin fundamental bir aspektini təşkil edirdi (palatanın əvvəlki qərarının əksinə olaraq). Palata həmçinin qərara aldı ki, şikayətin mahiyyəti onun 5-ci və 11-ci maddələri üzrə verdiyi şikayətlərinin qiymətləndirilməsi zamanı nəzərə alınmayıb.

## 18-ci maddənin pozuntusunun tanınması nəyi dəyişir?

18-ci maddə üzrə qərarlar ona görə önəmlidir ki, Avropa Şurasının üzvü olan bir dövlətin məqsədli şəkildə qərəzli niyyətlə hərəkət etdiyini müəyyən edir. Bu halların bir neçəsində Məhkəmə müəyyən etdi ki, dövlət orqanları hökumətə müxalif olan və ya başqa formada onu tənqid edən fərdləri hədəfə almışdır. Bəzi qərarlar daha da qəti olaraq, hakimiyyətin siyasətçiləri (İlqar Məmmədov ), jurnalistləri (Xədicə İsmayılova) və hüquq müdafiəçilərini (İntiqam Əliyev, Anar Məmmədli, Osman Kavala və Leyla Yunusova və Arif Yunusov) susdurmaq və cəzalandırmaq niyyəti ilə tədbirlər gördüyünü açıq şəkildə müəyyən etmişdir.

Bu işlərin həmçinin birbaşa fundamental demokratik prinsipləri sınaq qarşısında qoyduğu hesab edilir. Türkiyəli müxalif siyasətçi Selahattin Demirtaşın 18-ci maddə üzrə qaldırdığı işdə 18-ci maddənin pozuntusu tanınmışdır. Belə ki, seçki kampaniyası müddətində ona qarşı başladılan cinayət işinin "demokratik cəmiyyət konsepsiyasının təməlində dayanan plüralizmi boğmaq və siyasi müzakirə azadlığını məhdudlaşdırmaq" məqsədi daşıdığı müəyyən edilib.

Analoji olaraq, Aleksey Navalnının işində Böyük Palata demokratiyaya qarşı daha geniş təhdid olduğundan xəbər vermişdir.

> '...sözügedən məhdudiyyət təkcə ərizəçi və ya onun həmkarı olan müxalif fəalları və tərəfdarlarına deyil, cəmiyyətin təşkili vasitəsi kimi demokratiyanın mahiyyətinə də təsir edərdi...'

18-ci maddə üzrə qərarın fərdlərin özünə və konkret olaraq onların cinayət məhkumluğuna təsiri nədən ibarətdir? Məhkəmə bu sualı İlqar Məmmədovun qaldırdığı işdə birbaşa cavablandıraraq təsdiq etmişdir ki, onun Məmmədovun işi üzrə birinci qərarda 5-ci maddə ilə birgə götürülməklə 18-ci maddənin pozuntusunu müəyyən etməsi ona qarşı sürülən ittihamların tətbiqindən nəticələnən bütün tədbirləri qüvvədən salır.

Bu işlərdəki pozuntunların ağırlığı ilə əlaqədar olaraq, həm Məhkəmə, həm də Nazirlər Komitəsi Konvensiyaya uyğunluğu təmin etmək üçün sözügedən dövlətlərə əlavə təzyiq göstərmək üçün addımlar atıb.

## Məhkəmə tərəfindən atılan addımlar

Məhkəmə sistem problemlərini aşkar etmək və həmçinin qərarın icrası üçün hakimiyyətin atmalı olduğu addımları göstərmək məqsədilə, 46-cı maddəni tətbiq edə (məhdud hallarda istifadə olunur) bilir. Məhkəmə bunu məsələn, İntiqam Əliyevin qaldırdığı işdə edərək müəyyən etdi ki, 18-ci maddə üzrə Azərbaycana qarşı qəbul edilmiş qərarlar "qanunun aliliyinə məhəl qoymadan qisas xarakterli cinayət təqibləri və cinayət qanunvericiliyindən sui-istifadə etməklə, hökuməti tənqid edən şəxslərin, vətəndaş cəmiyyəti fəallarının və hüquq müdafiəçilərininin əsassız saxlanması və həbsə alınması kimi narahatlıq doğuran tendensiyanı" əks etdirir.

Məhkəmə həmçinin daxili məhkəmələrə işarə edib:

> "qanunun aliliyinin ən yüksək mühafizəçiləri olan daxili məhkəmələr sistematik şəkildə ərizəçiləri özbaşına həbsdən qoruya bilməmiş və onların son məhkəmə prosesinə həbsini davam etdirmişdir ki, bu da Məhkəmənin qəbul etdiyi bu qərarlarla nəticələnmişdir. Bu da onu göstərir ki, daxili məhkəmələrin rolu sadəcə olaraq həqiqi məhkəmə nəzarəti olmadan ittiham tərəfinin ərizəçiləri həbsdə saxlamaqla bağlı təqdimatlarının avtomatik təsdiqlənməsi ilə məhdudlaşıb".

Gəlinən bu cür nəticələrlə əlaqədar olaraq, Məhkəmə Azərbaycan hakimiyyəti tərəfindən qərara cavab olaraq görülməli "ümumi tədbirləri" göstərdi. Azərbaycan hakimiyyətindən "prioritet məsələ olaraq, hökuməti tənqid edən şəxslərin, vətəndaş cəmiyyəti fəallarının və hüquq müdafiəçilərinin əsassız həbs və tutulmadan qorunmasına xüsusi diqqət yetirmək" tələb olunub:

> "görüləcək tədbirlər bu qrup şəxslərə qarşı qisas xarakterli təqiblərin və cinayət qanunvericiliyindən onlara qarşı sui-istifadənin aradan qaldırılmasını və gələcəkdə oxşar təcrübələrin təkrarlanmamasını təmin etməlidir".

Bundan əlavə, Məhkəmə həm də cənab Əliyevlə bağlı görülməli fərdi tədbirləri təsbit etdi. Yəni, hakimiyyət "onun peşəkar fəaliyyətini [bərpa etməli], bunun üçün 'Məhkəmə tərəfindən aşkar edilmiş pozuntuların maksimum dərəcədə aradan qaldırılmasını təmin etmək üçün mümkün, vaxtında, adekvat və yetərli tədbirlər görməli və ərizəçini mümkün qədər həbsindən əvvəlki mövqeyinə qaytarmalı"dır.

Aleksey Navalnı tərəfindən qaldırılmış işdə Məhkəmə Rusiya hakimiyyəti tərəfindən dinc toplaşmaq azadlığı hüququna hörmət edilməsini təmin etmək məqsədi ilə qanunverici və ya digər tədbirlər görüməli olduğunu 46-cı maddəni tətbiq edərək qryd etdi.

Məhkəmə Selahattin Demirtaş işi üzrə qərarında daha da qəti təlimat verərək, Türkiyə hakimiyyətindən ərizəçi-siyasətçinin "mümkün ən erkən tarixdə" məhkəməyədək həbsdən azad edilməsini tələb etdi. Məhkəmə analoji olaraq, Osman Kavalanın dərhal azad edilməsinə göstəriş verdi.

## Nazirlər Komitəsi tərəfindən verilmiş təlimatlar

Bu qərarların ciddiliyini nəzərə alaraq, Nazirlər Komitəsi aidiyyəti dövlətlərdən cavab olaraq kompleks tədbirlər görülməsini tələb etdi. Məhkəmə qeyri-qanuni həbsdə saxlanılan siyasətçi İlqar Məmmədovun azad edilməsinə təlimat verməsə də, Nazirlər Komitəsi bunu tələb etdi. Nəticədə cənab Məmmədov 2018-ci ildə azadlığa buraxıldı (Nazirlər Komitəsi pozuntularla bağlı

prosedurdan istifadə edərək onun işini Məhkəməyə qaytardıqdan sonra).

Komitə həmçinin 18-ci maddə üzrə işlərdə ərizəçilərin məhkumluğunun götürülməsinə göstəriş verdi və 2020-ci il aprel ayında Azərbaycanın Ali Məhkəməsi tərəfindən həm İlqar Məmmədov, həm də Rəsul Cəfərovun məhkumluğu götürüldü.

Nazirlər Komitəsi Aleksey Navalnının 18-ci maddə üzrə qaldırdığı iki iş üzrə qərarların icrası ilə əlaqədar olaraq, toplaşmaq azadlığına hörmət edilməsini təmin etmək üçün Rusiyadakı qanunvericilik dəyişiklikləri məsələsini nəzərdən keçirməyə davam edir. Bundan əlavə, Navalnının özünə gəldikdə, Komitə aşağıdakı kimi təlimat verdi:

> ‛Gələcəkdə ərizəçinin dinc toplaşmaq azadlığı hüququndan istifadəsinə əngəl törədilməməsi və bu kontekstdə, onun bu cür yığıncaqlarda iştiraka görə daha heç bir qanunsuz həbsə və ədalətsiz məhkəmə araşdırmalarına və cəzalarına məruz qalmaması vacibdir."

Merabişvilinin işində Nazirlər Komitəsi Gürcüstan hakimiyyətinə onun öz kamerasından qeyri-qanuni şəkildə çıxarılması faktını araşdırmaq üçün təzyiq göstərməyə davam edərək, "18-ci maddənin pozuntusunun bütün aspektlərinə məsul olan şəxslərin müəyyən edilib cinayət məsuliyyətinə cəlb edilməsi üçün tam səmərəli araşdırma" aparılmasını tələb etdi.

## Digər faydalı resurslar

Məhkəmə özünün "Avropa İnsan Hüquqları Konvensiyasının 18-ci maddəsi üzrə Təlimat"ını dərc edib. Vəsait Azərbaycan və fransız dilləri də daxil olmaqla bir neçə dildə mövcuddur.

Məhkəmənin 18-ci maddə üzrə əsas yurisdikasiyası (hazırkı sənədin yazıldığı zaman) "Merabişvili Gürcüstana qarşı" işi üzrə Böyük Palatanın qərarında (2017-ci il) təsbit edilmişdir.

Avropa Şurasının İnsan Hüquqları üzrə Müvəkkili 18-ci maddə üzrə bir sıra işlərdə üçüncü tərəf kimi müdaxilə edib.

EHRAC "Navalnı və Ofitserov Rusiyaya qarşı" işində (№ 78193/17) üçüncü tərəf kimi yazılı qeydlərini təqdim edərək (Professor Ceffri Kahn ilə birlikdə) 18-ci maddənin 6-cı maddəyə tətbiqinin mümkünlüyünü mübahisələndirdi.

EHRAC əməkdaşı Cessika Qavron və Ramute Remezaite tərəfindən 18-ci maddənin 6-cı maddəyə tətbiqinin mümkünlüyü barədə "EJIL:TALK!" platformasında dərc edilmiş bloq yazısına nəzər salın.

18-ci maddə ilə müqayisədə 17-ci maddənin (hüquqlardan sui-istifadənin qadağan olunması) tətbiqinin daha məqsədəuyğun ola biləcəyinə gəldikdə isə, bununla bağlı hakimlər - Peyçal, Dedov, Ravarani, Ayk və Paçolay tərəfindən Aleksey Navalnı işi üzrə yazılmış ayrıca rəyi oxuyun.

## Avropa İnsan Hüquqlarını Müdafiə Mərkəzi

**Midlseks Universiteti**
**The Burroughs Hendon**
**NW4 4BT**
**Tel: +44 208 411 2826**
**www.ehrac.org.uk**
**ehrac@mdx.ac.uk**

EHRAC Midlseks Universiteti nəzdində yaradılmışdır. Universitet "Xeyriyyə təşkilatları haqqında qanun"a (1960) uyğun olaraq, qeydiyyatdan azad xeyriyyə təşkilatıdır.

Vladimir Varfolomeyevə məxsus üz səhifəsindəki şəkil (“Москва. Марш в поддержку политзаключённых”) CC BY-NC 2.0 çərçivəsində lisenziyalaşdırılmışdır.